# 1875-1918-Cİ İLLƏRDƏ MƏTBUAT

Azərbaycan mətbuatının bünövrəsi 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani yaxından iştirak etmişdilər.

"Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin qazandığı ən böyük uğurlar ilk növbədə onun dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan "Əkinçi" qadın azadlığı və qadın təhsili ideyasını təbliğ edən ilk Azərbaycan qəzeti olmuşdur. O, dini mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar edirdi. Qəzetdə təbiət elmləri və kənd təsərrüfatının inkişafı ilə bağlı elmi-kütləvi məqalələr verilirdi. "Əkinçi" Azərbaycandan kənarda da - Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə yayılırdı.

1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq Azərbaycanda bir müddət Azərbaycanca mətbu orqan çıxmamışdır. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən "Bakinski listok" olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet "Bakinskiye izvestiya" nəşrə başlamışdır. Rusdilli qəzetlər içərisində daha uzunömürlü olmuş "Kaspi"nin 1897-ci ildən etibarən nəşirliyini Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüş və təxminən həmin dövrdən onun redaktoru Əlimərdan bəy Topçubaşov, sonralar isə Əli bəy Hüseynzadə olmuşdur. Rus dilində nəşr edilən qəzetlər Azərbaycan səhifəsi yaratmaq təşəbbüsü göstərsələr də buna nail ola bilməmişlər. 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxarmağa nail olmuşdur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə müvəqqəti çapını dayandırmışdır.1883-cü ildə "Ziyayi-Qafqaziyyə” mətbəəsi və redaksiyası Şamaxıya köçürülüb. Qəzetin "Şamaxı dövrü” başlanıb.

Ümumilikdə, qəzetin 183 nömrəsi çıxıb. Axırıncı 11 nömrə Şamaxıda buraxılıb. Bununla da "Ziyayi-Qafqaziyyə” qəzeti bağlanıb. Qafqaz Senzura Komitəsinin 1885-ci il hesabatında nəşri dayandırılmış qəzetlərdən bəhs edilərkən "Ziyayi-Qafqaziyyə”nin sonuncu nömrəsinin 1884-cü il iyun ayında çıxdığı yazılır. Qəzetin çapı redaktor-naşirin maddi vəsaitinin olmaması səbəbindən dayandırılır. 1883–1891-ci illərdə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən "Kəşkül" qəzeti və jurnalı çıxırdı.

XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məhəmməd ağa Şahtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. "Şərqi-rus" qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemənzadə , Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdi. Qəzetin ən böyük xidmətlərindən biri də Cəlil Məmmədquluzadəni bir jurnalist kimi üzə çıxarması oldu. O, mətbuatda demokratik cərəyanın bərqərar edilməsində mühüm rol oynayan peşəkar bir redaktor kimi məhz bu qəzetdə yetişmişdir.

Çar hökumətinin oktyabr bəyannaməsindən sonra ölkənin hər tərəfinə yayılan mətbuat surətlə inkişaf etməyə başlamışdı. 1905-ci ildən başlayaraq Bakıda mətbuat sürətlə inkişafa başladı. Şübhəsiz ki, bu işdə çarın 17 oktyabr tarixli manifesti az rol oynamamışdı. Mətbuat

sahəsində senzura qismən zəifləmişdi. Bu illərdə Bakıda 63-ə qədər qəzet və jurnal çap olunurdu. Onların arasından yalnız bir neçəsi Bakıdan xaricdə nəşr olunurdu. Qəzetlərdən çoxunun ömrü qısa olsa da, elə qəzetlər var idi ki, istər ölkə daxilində, istərsə də xarici ölkələrdə öz yüksək professionallığı və intellektuallığı ilə özünə çoxlu abunəçilər toplaya bilmişdilər. Məsələn, "Molla Nəsrəddin" məcmuəsi Uzaq və Yaxın Şərqdə geniş yayılmışdı. Habelə "Füyuzat" məcmuəsi, "Həyat" və "İrşad" qəzetlərinin də Şərq ölkələrində çoxlu abunəçisi var idi. Savadsız abunəçilər "Molla Nəsrəddin" məcmuəsini bəzən onun səhifələrində çap edilən kəskin siyasi karikaturalarına görə alırdılar.

O dövrdə Azərbaycan ziyalıları arasında siyasi-ictimai fikrin istiqamətini, məslək mübarizələrini müəyyən etmək, bunların nə qədər ziddiyyətli, mürəkkəb şəraitdə getdiyini bilmək üçün 1917-ci ilə qədər çıxan, qapanan və yenidən çıxan, adını, ünvanını, hətta yolunu dəyişən müxtəlif qəzet və məcmuələri gözdən keçirmək kifayətdir. Bakıda "Kaspi" mətbəəsindən əlavə Tiflisdə və Gəncədə kiçik mətbəələr yaranmışdı. Xüsusilə Orucov qardaşlarının bu sahədəki fəaliyyəti nəticəsində mətbəələr genişlənir, istər qəzet, məcmuə və istərsə kitab nəşri üçün böyük imkan yaranırdı. Şuşa, Naxçıvan kimi şəhərlərdə də zəif, məhdud imkanla olsa da, çapxana binası qoyulurdu.

"Təkamül" ilk nömrəsini Məhəmməd Hadinin "El fəryadı" adlı azadpərəst şeiri ilə başlayır. Şair millətin səadətini hürriyyətdə görür. "Təkamül" uzun müddət davam edə bilmədi. 1907-ci ildə onun əvəzinə "Yoldaş" nəşr olundu, o da tez bağlandı. Bu dövrdə müxtəlif dünyagörüşləri təmsil edən qəzet və jurnallar nəşr olunur, sürətlə bir-birini əvəz edirdilər ki, bunlardan "Molla Nəsrəddin", "Dəvət-Qoç", "Bakinski raboçi", "Dəbistan", "Hilal", "Tərəqqi", "Tuti", "Kəlniyyət", "Babayi-Əmir" və s. göstərmək olar.

Qəzetlər arasında az-çox ardıcıl demokratik xətti Haşım bəy Vəzirovun nəşr etdirdiyi "Tazə həyat" (1907–1908), "İttifaq" (1908–1909), "Səda" (1909–1911), "Sədayi-vətən" (1911–1912), "Sədayi-həqq", "Sədayi-Qafqaz"da (1915–1916) görmək olar.

"Məzəli" jurnalı "Molla Nəsrəddin"dən sonra mətbuat tarixində ən məzhəkə jurnalıdır. Burada günün siyasi həyatı kəskin bir qələm ilə əks olunur. "Məzəli" yalnız ümumi məsələlərdən yox, ölkənin daxili vəziyyətindən, şəhər həyatından da bəhs edirdi. Burada köhnə pərəstlər, avamlar, maarif və mədəniyyət düşmənləri, rüşvətxorlar, yalançı ruhanilər şiddətlə tənqid olunurdular. "Məzəli"də Əli Nəzmi, Məmməd Səid Ordubadi, Əliağa Vahid, Cənnəti və s. qüvvətli qələm sahibləri iştirak edirdilər.

"Dəbistan" (1906–1907), "Rəhbər" (1906), "Məktəb" (1911–1917) isə tərbiyə və məktəb məsələlərindən bəhs edən pedaqoji məcmuələr idi. Burada sadə dildə şeirlər, hekayələr, nağıllar, məsəllər çap olunurdu. Süleyman Sani Axundovun "Qorxulu nağıllar"ı, bir sıra müəlliflərin (Abdulla Şaiq, M. A. Əliyev, Ə. M. Mustafayev və b.) yazdığı "Gülməli nağıllar" bu nəşrlərin ən faydalı yazılarındandır.

***"İrşad" qəzeti***

Əhməd bəy Ağayev "Həyat" qəzetindən gedəndən sonra "İrşad" adlı yeni bir qəzet çıxarmağa başlayır. "İrşad" siyasi, ictimai, iqtisadi və elmi bir qəzet hesab edilirdi. Əhmədbəy Ağayev dövrünün görkəmli ədib və mühərrirlərini qəzet ətrafına toplaya bilmişdi. Bunlardan Haşım bəy Vəzirovu, M. Ə. Rəsulzadəni, Üzeyir bəy Hacıbəyovu, Ə. A. Müznibi və başqalarını göstərmək olar. Qəzet birinci il həftədə üç dəfə, ikinci il həftədə 4 dəfə və bəzi hallarda isə həftədə

5 dəfə olmaqla nəşr edilirdi. İrşad" qəzetində fəaliyyət göstərən görkəmli mütəfəkkirlər arasında Ü. Hacıbəyov, M. Ə. Rəsulzadə, F. Ağazadə, Ö. F. Nemanzadə, Q. Qarayev, A. Y. Talıbzadə, M. S. Axundov, A. Sur, S. M. Əfəndiyev, M. Hadi, N. Vəzirov, M. Ə. Sabir və başqaları da var idi.

1905–1908-ci illərdə Bakıda nəşr edilmişdir. 1908-ci ildə müvəqqəti redaktoru Məhəmməd Əmin Rəsulzadə olmuşdur. Üzeyir bəy Hacıbəyov "İrşad"-ın ən fəal əməkdaşlarından idi. Burada işlədiyi müddətdə 100-ə yaxın publisistik məqalə, "Ordan-burdan" ümumi başlığı altında 200-dən çox felyeton və satirik miniatür yazmış, "İrşad"-ın felyetonçusu kimi şöhrət tapmışdı. "İrşad"-ın nəşri iki dəfə dayandırılmışdı: 1907-ci ildə müvəqqəti, 1908-ci ildə isə həmişəlik. Hər ikisinin "günahkarı" Üzeyir bəy Hacıbəyov olmuşdur. Birinci dəfə "Stolıpinin xəyalı" felyetonuna, ikinci dəfə isə çar hökumətinin "İvan" obrazı ilə ciddi məsxərə olunduğu "Nağıl" felyetonuna görə.

***"Tərəqqi" qəzeti***

"Tərəqqi" qəzeti qəzeti "İrşad" qəzetinin fəaliyyətinə xitam verildikdən sonra Əhməd bəy Ağayev tərəfindən nəşr etdirilirdi. Birinci nömrəsi 1908-ci il iyun ayının 3-də çıxmışdır. İmtiyaz sahibi M. Muxtarov idi. Qəzetin adı olan "Tərəqqi" sözünün aşağı hissəsində "Hürriyyət, müsavat, ədalət" sözləri yazılmışdı. Siyasi, ədəbi, ictimai və iqtisadi bir qəzet idi. "Tərəqqi" əvvəllər həftədə 5 dəfə, ilin axırına doğru gündəlik çap edilirdi. Əhməd bəy Ağayev İstanbula gedir, bununla qəzet də bir müddətdən sonra bağlanır. Bundan sonra Muxtarov "Tərəqqi" mətbəəsini alıb Haşım bəy Vəzirovun sərəncamına vermişdi.

***"Füyuzat" məcmuəsi***

"Həyat" qəzeti bağlandıqdan sonra Əli bəy Hüseynzadə "Füyuzat" məcmuəsinin nəşrinə başlamışdı. İlk nömrəsi 1906-cı il 1 noyabrda çıxmışdır. İmtiyaz sahibi H. Z. Tağıyev idi. Ədəbi, siyasi, fənni və ictimai həftəlik məcmuə idi. Onun səhifələrində əsasən Əli bəy Hüseynzadə özü, M. Hadi, Abbas Səhhət, Əhməd Kamal, M. Ə. Rəsulzadə, M. Ə. Sabir, Həsən Səbri Ayvazov və başqaları çıxış edirdilər. Məcmuənin nəşri 1 noyabr 1907-ci ilədək davam etmişdir.

***"Füyuzat" jurnalı***

"Füyuzat" Əli bəy Hüseynzadənin baş redaktorluğu, maarifpərvər, milyonçu-mesenat Hacı Zeynalabdin Tağıyevin maddi vəsaiti hesabına 1906-cı ilin noyabr ayının 1-dən Bakıda nəşr olunmağa başladı. "Ədəbi, fənni, siyasi, ictimai, müsəvvər həftəlik türkcə məcmuəyi-islamiyyə" olan Füyuzat redaksiyası Nikolayevski küçəsində Hacı Zeynalabdin Tağıyevin mülkündə yerləşirdi. İllik abunə haqqı 6 manat, 6 aylıq isə 3 manat 50 qəpik idi.

"Füyuzat" Ə. Hüseynzadənin "Həyat" qəzetinin sonuncu sayında "Vidanamə" başlıqlı məqaləsində göstərdiyi kimi "qüdrətli, ədəbi qələm sahiblərinin cəm" olduğu nəşr kimi diqqəti çəkdi. Bəzi tədqiqatçılar, ədəbiyyatşünaslar 1905–1910-cu illər arasında Azərbaycan ədəbiyyatı barəsindəki fikirlərini cəmləşdirərək bu dövrü "Əli bəy və "Füyuzat" dövrü adlandırırlar. Jurnalist yaradıcı heyətinə daxil olan Abdulla Şaiq "Füyuzat"ı "islam aləmində görünməmiş ən möhtəşəm mətbuat orqanı" kimi dəyərləndirirdi. Mətbuat və ədəbiyyat tarixinin araşdırıcısı, MEA-nın müxbir üzvü, professor Əziz Mirəhmədov XX əsrin əvvəllərində yaranan ictimai, siyasi və mədəni hərəkatı öyrənmək zərurətini lakonik şəkildə belə ifadə edir:

"Füyuzat" məcmuəsi XX əsrin 30-cu illərinədək Cəlil Məmmədquluzadə, M. Hadi, A. Şaiq, M. S. Ordubadi kimi böyük ədiblər tərəfindən yüksək qiymətləndirilmişdi. Lakin 1930-cu illərdən 1990-cı illərədək mətbuat və ədəbiyyat tariximizə həsr olunan elmi tədqiqatlarda, publisistik

yazılarda "mürtəce mətbu orqan" kimi təqdim olunmuşdur. 1990-cı illərdən sonra professor Şamil Vəliyev, filologiya elmləri namizədi Ofelya Bayramlı, Rasim Kazımoğlu və b. Füyuzat irsini öyrənmiş, elmi monoqrafiyalar, tədqiqat əsərləri çap etmişlər. O. Bayramlı tərəfindən "Füyuzat"ın çap olunduğu 32 sayı ərəb qrafikasından transleterasiya edilib 492 səhifə həcmində nəşr olunmuşdur.

Jurnal Azərbaycanda neoromantizmi yaradan mətbuat orqanı kimi xarakterizə olunur. "Füyuzat"da Əli bəy Hüseynzadənin yazdığı məqalələrdən birində deyilirdi:

Bu fikir füyuzatçı mətbuat orqanları tərəfindən təkmilləşdirildi və "Tazə həyat", "İrşad", "Yeni füyuzat", "Həqiqət", "Tərəqqi", "İqbal", "Sədayi-həqq", "Şəlalə2, "Açıq söz", "Bəsirət", "Qurtuluş", "Dirilik", "Azərbaycan", "Övraqi-nəfisə" və s. mətbuat orqanları tərəfindən "türkləşmək, islamlaşmaq, müasirləşmək bərabərdir azərbaycançılıq" şəklində formulə edilərək təbliğ olundu.

***"Dəbistan" məcmuəsi***

"Dəbistan" məcmuəsi məktəblilər üçün idi. Birinci nömrəsi 1906-cı ildə çıxmışdır. Məcmuənin səhifələrində o dövrun görkəmli müəllimləri iştirak edirdilər. Naşiri Məhəmməd Həsənbəy, mühərriri isə Əlisgəndər Cəfərzadə idi. Məcmuə 1908-ci il martın 10-dək davam etmişdir. Lakin çapa başlandığı gündən məcmuənin sayı ildən-ilə azalırdı. Məsələn, birinci il 18 nömrə, ikinci il, yəni 1907-ci ildə 7 nömrə çıxmışdısa, üçüncü ildə — 1908-ci ildə cəmi 2 nömrə çıxmışdı.

Jurnalın fəaliyyətində Ə. İ. Cəfərzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Şeyda, Həsən bəy Zərdabi, Firudin bəy Köçərli, R. Əfəndizadə, Musayev, Fərhad Ağazadə, Abbas Səhhət, Abdulla Şaiq, Ə. Əfəndizadə, Fərəcullazadə, Nəriman Nərimanov və dövrün digər tanınmış ziyalıları iştirak ediblər. Hələ Qori müəllimləri seminariyasında işlədiyi müddətdən mətbuatda müntəzəm çıxış edən Sultan Məcid Qənizadə ən çox "Dəbistan" jurnalında çap olunardı. 1906-cı ildə "Dəbistan" jurnalında çap edilmiş Sultan Məcid Qənizadənin "Allah xofu" hekayəsi onun yaradıcılığında xüsusi yer tutur.

Maarifçi-demokratik səciyyəli "Dəbistan" jurnalı maddi çətinliklə üzləşəndə onun nəşrini davam etdirmək üçün jurnala xeyriyyəçi Zəkəriyyə bəy Aslanov da köməklik göstərənlər arasında olmuşdur. Bu məcmuə 1908-ci ilin martın 1-nə kimi davam etmişdir. Məcmuə maddi zəiflikdən dolayı qapanmışdır. Son nömrəsində Həsən bəy Zərdabinin şəkli, tərcümeyi-halı, fəaliyyəti, *xidməti və mərasimi-dəfni öz əksini tapıb.*

***"Təkamül" qəzeti***

Həftəlik sosialist qəzeti idi. 1906-cı ildən nəşrə başlayıb və həmin ildə də bağlanıb. Qəzetdə iştirak edən mühərrirlər: Sultan Məcid Əfəndizadə, M. Ə. Rəsulzadə, Seyid Musəvi, Əsədulla Axundov və başqaları idi.

***"Molla Nəsrəddin" məcmuəsi***

1906-cı ildə Tiflisdə çap olunmağa başlayan siyasi, ictimai, ədəbi, satirik məcmuə idi.

Müəyyən olunmuş bu proqrama uyğun şəkildə Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə jurnalın ilk sayını çapa hazırladılar. Jurnalın ilk nömrəsi 1906-cı il aprelin 7-də çıxdı. Jurnalın 7 aprel tarixli ilk sayında Mirzə Cəlilin "Molla Nəsrəddin" imzası ilə "Tiflis 7 aprel"

sərlövhəli baş məqaləsi,"Məcmuəmizə müştəri olanlara nəsihət", "Molla Nəsrəddinin teleqramları", "Bilməli xəbərlər", "Dəllək", "Atalar sözü" və digər yazılar, həmçinin 4 müxtəlif karikatura və bir neçə elan dərc olundu.

Həcmi kiçik formatda olan "Molla Nəsrəddin"in çapı həftədə bir dəfə nəzərdə tutulmuşdur. Proqram səciyyəvi baş məqalədə isə Molla Nəsrəddin üzünü doğma xalqına tutub söyləyirdi:

Molla Nəsrəddinçilər məqalələrini "türkün ana dilində", sadə danışıq tərzində, xalqın anlayacağı, başa düşəcəyi dildə yazdılar. C. Məmmədquluzadənin öz dili ilə desək "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı".

C. Məmmədquluzadə jurnalın ilk nömrəsinin işıq üzü görməsi münasibətilə Rusiyanın bir çox yerlərindən təbrik məktubları, teleqramlar aldı. Redaktor bu təbriklərə aprelin 12-də "Na povorote" qəzeti, aprelin 14-də isə "Kaspi" qəzeti vasitəsilə təşəkkürlərini bildirdi.

"Molla Nəsrəddin" dövrünün mühüm siyasi hadisələrinə səs verir, milli oyanış prosesinə xidmət edirdi. Jurnalın mövzu və təsir dairəsi çox geniş idi. "Molla Nəsrəddin" Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. Jurnalda Azərbaycanın görkəmli şair, yazıçı və jurnalistləri ilə yanaşı Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə kimi rəssamlar da fəaliyyət göstərərək Azərbaycanda yeni rəssamlıq məktəbinin təməlini qoydular. "Molla Nəsrəddin"in müasir ədəbiyyat, maarifləşmə, demokratikləşmə uğrunda mübarizəsi, onun güclü satirası jurnalda əməkdaşlıq edən sair və yazıçıların yaradıcılıq istiqamətini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də "Mollanəsrəddinçilik" adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdı. Mollanəsrəddinçilər klassik Azərbaycan, Şərq, rus və dünya bədii-publisist irsinin ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnərək, milli mətbuat tarixində satirik jurnalistikanın bünövrəsini qoyulmuş, Azərbaycan publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirərək onun inkişafında misilsiz rol oynamışlar. Məcmuə 1915-ci ilədək müntəzəm çıxmışdır. Ondan sonra məcmuənin nəşri dayandırılmış, sonra təzədən çıxmışdı. 1920-ci ildə Təbriz şəhərində 8 nömrəsi çıxmışdır. Nəşri Sovet hakimiyyəti illərində də davam etmişdir.

***"Tazə həyat" qəzeti***

Birinci nömrəsi 1907-ci il 1 apreldə çıxmışdır. Naşiri H. Z. Tağıyev, mühərriri isə Haşım bəy Vəzirov idi. Gündəlik ədəbi, siyasi qəzet idi. 1908-ci il 7 oktyabrda hökumət tərəfindən bağlanmışdır. Qəzetin səhifələrində Haşım bəy Vəzirov, Seyid Hüseyn Sadiq, Əliabbas Müznib, Məhəmməd Hadi, Hacı İbrahim Qasımov və başqaları çıxış edirdilər.

"Təzə həyat" milli burjuaziyanın mənafeyini müdafiə etmiş, fəhlələrin istismarını pərdələməyə çalışmış, qadın azadlığına qarşı çıxmışdır. "Təzə həyat"-ın ideya istiqaməti, xüsusilə, Sultan Əbdülhəmidə mədhiyələr deməsi, varlılara yarınması Cəlil Məmmədquluzadə tərəfindən kəskin surətdə tənqid olunmuşdur. Bununla da, Cəlil Məmmədquluzadə, mollanəsrəddinçilər və ümumiyyətlə, "Molla Nəsrəddin" jurnalı əleyhinə arasıkəsilməz kampaniya başlanmışdır.

***"Bəhlul" məzhəkə məcmuəsi***

Ömrü çox qısa olmuş məcmuələrdən biridir. "Bəhlul" satirik jurnalı 19 may 1907-ci ildə Ələsgər Əliyevin redaktorluğu, Seyid Hüseynin əməkdaşlığı ilə Bakıda nəşrə başlayıb. Jurnal "Molla Nəsrəddin" ənənələrini davam etdirən məcmuələrdən biri olub. Jurnalın adı Molla Nəsrəddin kimi xalq arasında məzmunlu lətifələri ilə məşhur olan ədalətpərəst, həqiqətpərəst

Bəhlul Danəndənin adından götürülmüşdür. "Bəhlul"un zəngin ədəbi-bədii tərtibatı var idi. "Bəhlul" öz səhifələrində "Molla Nəsrəddin"ə rəğbət ifadə edən bir sıra yazılar və şəkillər vermişdi. Ələsgər Əliyevin jurnalistlik fəaliyyətində "Bəhlul" jurnalı xüsusi yer tutur. Jurnalın ömrü cəmi 6 ay olmuş və 9 nömrəsi işıq üzü görmüşdür. "Bəhlul"un nəşri 1907-ci ildə noyabr ayının 4-də, 9-cu nömrədən sonra "zərərli məsləkinə görə" dayandırılmışdır. Çünki jurnalın səhifələrində zəhmətkeş kütlələrin 1905–1907-ci illərdəki inqilabi mübarizəsi geniş işıqlandırılmışdır.

Burada satirik şeirlər, felyetonlar, "Bilməli xəbərlər", "Teleqraf xəbərləri", "Lüğət", "Tapmaca" və b. satirik başlıqlar altında yazılar dərc etdirilirdi. Jurnalda ictimai gerilik, dini-fanatizm, ailə və məişətdəki vaxtı keçmiş adət-ənənələr, dövlət idarəçiliyindəki nöqsanlar, varlı-kasıb münasibətləri sadə xalq dilində, satirik üslubda oxucuya çatdırılırdı. "Bəhlul" Bakıda fəhlə hərakatına köməkdə, dövrün mühüm məsələlərinin işıqlandırılmasında, xalqın maariflənməsi uğrunda mübarizədə böyük xidmət göstərmişdir. İran və Türkiyədə baş verən milli oyanışla bağlı hadisələr, fəhlələrlə kəndlilərin ittifaqı, fəhlələrin siyasi mübarizəsi məsələsiişıq üzü görmüş, sosial-demokrat fəhlə partiyasına, onun ayrılmaz bir hissəsi olan "Hümmət"in fəaliyyətinə yüksək qiymət verirdi. Kapitalistlərin nökərləri tərəfindən Xanlar Səfərəliyevin xaincəsinə öldürülməsi "Bəhlul" jurnalının mühərrirlərini mütəəssir etmişdi. Bu münasibətlə verilən məqalə jurnal "Hümmət" qrupunun üzvlərinə müraciətlə deyirdi ki, bu ağır itki təkcə sizi deyil, bütün fəhlələri kədərləndirir. Jurnalın 8–9 nömrələrində "Fəhləyə dair" sərlövhəli bir felyeton dərc edilmişdir. "İpləmə" imzası ilə verilmiş bu felyetonda sahibkarla fəhlə arasında gedən söhbət əks etdirilir. Bu söhbətdə kəskin siyasi məsələlərə toxunulur. Fəhlə açıq bildirir ki, ədalətsizlik və zülm davam etdikcə onlar mübarizədən çəkinməyəcəklər.

***"İttifaq" qəzeti***

Bu qəzet "Tazə həyat" qəzeti bağlandıqdan sonra Haşım bəy Vəzirov tərəfindən buraxılmışdır. Qəzet artıq "Kaspi" mətbəəsində deyil, yeni təşkil olunmuş Orucov qardaşları mətbəəsində nəşr edilirdi. Qəzetin birinci nömrəsi 1908-ci il dekabrın 1-də çıxmışdı. 1909-cu ildə isə hökumət tərəfindən bağlanmışdı. Qəribə idi ki, qəzetin mühərriri H. Vəzirovu cəzalandırmaq əvəzinə Rəşid bəy Yusifzadə Türküstana sürgün edilmişdi.

"Dəvət-Qoç" qəzeti — Azərbaycan və erməni dillərində çıxırdı. Qəzet əsas etibarilə erməni-müsəlman qırğınının qarşısını almaq uğrunda mübarizə aparırdı. Qəzet İsabəy Aşurbəylinin müdirliyi altında çıxsa da qəzetin təşkilində mühüm rolu Mir Həsən Mövsümov oynamışdı. Qəzetin səhifələrində onun bir sıra felyetonları dərc edilmişdi.

***"Zənbur" məzhəkə məcmuəsi***

Həftədə bir dəfə şəkilli çıxırdı. Birinci nömrəsi 1909-cı il 13 martda çıxmışdır. Jurnal "Molla Nəsrəddin" jurnalının satira ənənələrindən bəhrələnirdi. Jurnalın ilk nömrəsi 1909-cu il martın 13 -də cümə günü işıq üzü görüb.

"Zənbur"un sahibi və naşiri həkim, yazıçı, ictimai xadim Mirzə Əbdülxalıq Axundov, birinci ildə 21-ci nömrəyədək məsul müdiri isə Rza bəy Səlimxanov olmuşdur. Jurnala ilin yarısında 22-ci nömrədən sonra Ə. Əzimzadə müdirlik etmişdir. O, həmçinin jurnalın əsas rəssamı idi. Birinci il "Zənbur" 42 nömrə nəşr edilmişdir. İkinci ildə birinci nömrədən etibarən "Zənbur"un müdiri knyaz Murtuza Palavandov, naşiri isə həkim Əbdülxalıq Axundov olmuşdur. İyul ayının 25-dən

1910-cu ildən, "Zənbur"da (22-ci nömrədən) Əliabbas Müznib baş mühərrirliyi qəbul etmişdir. 1910-cu il oktyabrın 15-nə kimi 28 nömrəsi çıxmışdır.

***"Rəhbər" məcmuəsi***

Birinci nömrəsi 1906-cı ildə buraxılmışdı. Aylıq məcmuə idi. Məcmuənin naşiri və müdiri müəllim Mahmud bəy Mahmudbəyov idi. Cəmi 3–4 nömrə çıxmışdır. Ən fəal müəlliflər Mirzə Ələkbər Sabir ilə Abbas Səhhət idi.

"Rəhbər" jurnalında təlim-tərbiyəyə, ictimai məsələlərə dair məqalələr, Azərbaycan, rus və dünya ədəbiyyatından nümunələr dərc olunurdu. Jurnalda, həmçinin Rusiya müsəlmanlarının məişətindən, ədəbiyyatdan, üsuli-təlim və tərbiyədən bəhs olunmuşdu. "Rəhbər" əsasən demokratik istiqamətli olmuş, siyasi fikirləri, elmi bilikləri təbliğ etmiş, Azərbaycanda pedaqoji və uşaq ədəbiyyatının inkişafında, ümumtəhsil ideyalarının yayılmasında mühüm xidməti olmuşdur.

Jurnal ilk nömrəsinin baş məqaləsində gələcək proqramı haqqında danışmışdır. Elmin və maarifin inkişafı məsələlərinə xüsusi əhəmiyyət verən jurnal yazırdı:

Sonra jurnal Azərbaycanda belə mənəvi qüvvələrin inkişafına kömək göstərəcəyini bildirir:

Jurnal səhifələrində bir sıra ictimai-siyasi məsələlər qaldırmışdır. M. Mahmudbəyov "Bizə nə lazımdır" sərlövhəli publisist yazısında 1905-ci ilin inqilabi hadisələrindən sonra Azərbaycanda əmələ gələn dirçəliş və oyanmanın mənzərəsini verməyə çalışmış, qarşıda duran vəzifələri şərh etmişdir.

"Rəhbər"də ədəbiyyata, şeir və sənətə dair məqalələr dərc olunurdu. "Ədəbiyyatımıza dair" başlığı ilə verilən məqalələrin müəllifi Firidunbəy Köçərli idi. Birinci nömrədə Seyid Əbülqasım Nəbatinin həyat və yaradıcılığı, ikinci nömrədə "Durnalar" şeirləri, beşinci nömrədə "Molla Vəli Vidadi və onun tərcümeyi-halı" məqalələri çap olunmuşdur.

S. M. Qənizadənin "Körpə uşaqlar tərbiyəsi" məqaləsi jurnalın ən maraqlı yazılarındandır. Həmin məqalə jurnalın 4 nömrəsində hissə-hissə verilmişdir. Maddi vəsaitin yoxluğu üzündən jurnalın nəşri dayandığı üçün məqalə də yarımçıq qalmış, ardı dərc olunmamışdır.